# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLIKASI ALI SOVETININ ORQANI

№ 38 (481)

ŞƏNBƏ 14 NOYABR 1992-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur
1992-ci ilin sentyabrından yenidən nəşr olunur.

İNDEKS 66868
QİYMƏTİ 4 RUBL.


# ПРЕЗИДЕНТ ГӘБУЛ ЕТМИШДИР



Нојабрын 13-дә Азәрбајҹан Республикасынын президенти Әбүлфәз Елчибәј Ислам Конфрансы Тәшкилатынын баш катиби доктор Һәмид әл-Габидинин башчылыг етдији нүмајәндә һеј'әтини гәбул етмишдир. Нүмајәндә һеј'әтинин тәркибинә Ибраһим Салеһ Бәкир, Мүһәммәд Һәбиб ибн-Хоҹа, доктор Әһмәддин Еһсаноғлу вә дикәр шәхсләр дахил идиләр.

Азәрбајҹан Республикасынын президенти Ә. Елчибәј гонаглары саламлајараг демишдир: «Бу чәтин вәзијјәтдә Азәрбајҹана кәлмәјиниз вә халгымыза диггәтиниз үчүн сизә тәшәккүр едирәм. Тарих боју мүсәлман халгларына бә'зи даирәләрин бахышы мәнфи олуб. Ислам дининә гаршы аллаһсызларын мүбаризәси һәмишә совет дөвләтинин апарычы истигамәтләриндән бири иди. Ислам дини даим тәзјигә мә'руз галыб, лакин инди вәзијјәт тамам башга ҹүрдүр. Күман едирик ки, сизин Азәрбајҹана кәлишиниз әлагәләримизи даһа да мөһкәмләндирәҹәк».

**«АЗӘРБАЈҸАН».**

---

* Гәбул заманы.
Фото Ф. Бағыровундур.